**UOT 782/785**

***Aysel Hacıyeva***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
***AZ-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:*** aysel.h91@mail.ru

# FƏRƏC QARAYEVİN ORKESTR VƏ SOLO VİOLİN ÜÇÜN KONSERTİNİN JANR XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Məqalədə Fərəc Qarayevin Orkestr və solo Viloin üçün Konsert əsəri janrın yeniləşməsi kontekstində təhlil olunur. Qeyd olunur ki, konsertdə janrın ənənəvi modelinə yeniliklər gətirilmiş, bu isə bəstəkarın yaradıcılığında “in mixto genre” prinsipinin mövcudluğunu bir daha təsdiq etmişdir.
**Açar sözlər:** Violin konserti**,** F.Qarayev, janr, konsert, kompozisiya, virtuozluq.

Çağdaş dövrdə instrumental musiqinin ali formalarının böhranı müşahidə olunur. Bunun səbəblərindən biri XX-XXI əsrlərin tarixi kontekstində üslub və janr əlaqələrində dəyişikliklərin xüsusi dinamika əldə etməsidir. Dövrün bədii sisteminə uyğun olaraq “qarışıq janr” və “qarışıq üslub” kimi “hadisələr” diqqət mərkəzindədir. Simfoniya, konsert kimi janrların tipoloji əlamətlərindən kənarlaşmaq cəhdləri geniş intişar tapır. Lakin “xalis” janr paradiqması əhəmiyyətini saxlamaqdadır. Bu mənada bəstəkar Fərəc Qarayevin yaradıcılığı xüsusilə diqqəti cəlb edir. Fərəc Qarayev yaradıcılıq simasının, üslubunun məxsusiliyi, müasir sənət aləmində mövqeyinin unikallığı ilə seçilir. Hər bir əsərini “fərdi layihə” əsasında quran bəstəkarın yaradıcılığında ənənəvi janrların yeni yozumu onun üslub özəlliyinin əsas cəhətinə çevrilir.

Bəstəkarın son iri instrumental əsəri-Orkestr və solo Viloin üçün Konserti (2004) janrın inkişaf tarixində mühüm əhəmiyyət kəsb edən əsərlər sırasındadır. Bu əsəri F.Qarayev axtarışlarının kvintessensiyası, sənət zirvələrindən biri hesab etmək olar. Əsərin ilk ifası 2009-cu ildə İsveçrədə Azərbaycan mədəniyyəti festivalı çərçivəsində baş tutmuşdur. Əsərin musiqisində xatirə xarakterli obraz-məzmun sferasının yaradılması, ümumi ab-havanın lirik ideyaya köklənməsi, bununla bərabər emosional vəziyyətin fasiləsiz olaraq dəyişməsi, kino və ya teatr musiqisində səhnələrin növbələşməsini xatırladır.

Konsertdə fərdi dramaturji konsepsiyanın bədii həlli qismən janrın ənənələri bazasında reallaşdırılır. Bəstəkar bir tərəfdən janr modelinin qurulmasında indiyə qədər mövcud olan tarixi təcrübəyə əsaslanır, digər tərəfdən isə musiqi ilə janrın funksional əlaqələrinin itməsi təhlükəsinəbaxmayaraq janr modelində yeni axtarışları həyata keçirir. Nəticədə əsərin ümumi ifadə-məzmun planında demək olar ki, musiqinin bütün inkişaf istiqaməti dəyişr. Bu isə bir növ janrı “məhdud” kontekstdən “azad etmək” zərurətini doğurur.

Bəstəkar janrın ənənəvi modelində zəruri və təbii sayılan musiqi ifadə vasitələrinin formal xüsusiyyətlərindən kənarlaşaraq orijinal tembr, intonasiya, harmoniya, faktura ritm tapıntıları və yeni

çalğı üsulları vasitəsilə tematizmi konkret janr "libasında",eyni zamanda fərdi konsepsiya daxilində qurur.

İlk əvvəl əsərin janr adına diqqət yetirək. Əsərin "konsert" adlandırması ilə bəstəkar bir növ tarixin yaddaşına, keçmişin təcrübəsinə müraciət edir. Ancaq, janr modelinin təsdiqlənmiş və dəqiq təfsirindən imtina edərək şəxsi ideyasını, düşüncəsini ön planda tutur. Bu da janr adında önəmli yerdəyişməyə gətirib çıxarır. Belə ki, burada solistlə orkestrin deyil, məhz orkestrlə solistin dialoqu vurğulanır. Əsərin adında bəstəkarın qayəsinə uyğun olaraq solist "təvazökarcasına" ikinci mövqe tutsa da, onun ifrat virtuoz, sırf konsert xarakterini danmaq əslində mümkün deyil. Çünki orkestr partiyasının önəmliliyi müqabilində bəstəkar bir an da olsun solo violin barədə, onun özəl yozumu barədə unutmur. Konsertdə solistin mahiyyəti, rolu onun nə orkestrlə dialoqunda, nə də yarışında deyil məhz onun şəxsi ifadə tərzində müəyyən olunur. Solist klassik konsertərdə olduğu kimi "lirik qəhrəman" rolunu icra etmir. O, hadisələrin inkişafının fəal iştirakçısıdr.

Bəstəkar nəinki konsertin, eyni zamanda hissələrin adlandırılması məsələsində də fərdi yaradıcılıq mövqeyindən çıxış edir: I hissə- Mövzusuz Variasiyalar, II hissə- Mövzu və Allüziyalar, III hissə- Variasiyalar və Mövzu olaraq şərh olunur. Variasiyavarılıq prinsipi bütün əsərə nüfuz edərək total xarakter daşıyır -musiqinin ardıcıl, sərbəst inkişafında davamlılıq hissini yaradır.

Başqa bir vacib məqama da diqqət yetirək: bəstəkarın janr normativləri kontekstində janr və əsərin adı, janr və forma məsələlərinə fərdi yanaşması onun demək olar ki, bütün yaradıcılığında aydın izlənilir. F.Qarayev musiqisində *"in mixto genre"*prinsipinin mövcudluğunu müəyyən edən M.Vısotskaya yazır: "Hətta prototiplərin adları - Sonata, Simfoniya, yaxud Konsert- opusların adları qismində çıxış etsə də, onlar daha çox metafora, janr adının genezisi, semantikası barədə xatirə kimi düşünülür" [3]. Konsertdə üçhissəli struktura formal şəkildə riayət olunsa da, hissələrə bölgünün tam şərti xarakter daşıdığını qeyd etməliyik. Üçhissəli kompozisiyada hissələrin məzmunu orijinal həll edilir.Hər üç hissədə ənənəvi səslənmədə təqdim olunan, bitkin mövzu (müəllif mətni nəzərdə tutulur) yoxdur. Musiqi toxuması bir növ "labirint" fonunda "qeyb olan" intonasiya özəyinin axtarışındadır. Musiqi mətninin müxtəlif "məna anımları" ilə mütəmadi olaraq qovuşması nəticəsində daim dəyişən, yenilənən səs axını yaranır və qeyri-adi forma qurumunda tənzimlənir. Birinci və ikinci hissələrdə tematizm mövzunun hazırlanması prosesi üzərində qurulur: daha dəqiq desək, hissə boyu tədricən ərsəyə gəlir, açıqlanır. Polifonik tematizm, total variasiyalılıq prinsipi konsertlik estetikası ilə paradoksal şəkildə uzlaşır. Forma baxımından müstəqil həll edilən hissələrin *attacca* ifa olunması vahid dramaturji xəttə tabe olunan poema tipli kompozisiya haqqında danışmağa əsas verir. Silsilə ümumi dramatik məzmuna tabe edilərək tematik planda birləşdirilir, hissələrin vahidliyi, eyni zamanda sərbəstliyi əldə olunur. Bununla belə, fakturanın vahidlik xəttinin müvazinəti pozulmur. Hissələrin funksional münasibətləri yeni məcraya yönəlir. Nəticədə kompozisiyanın forma-tip mexanizminin öncədən təyin edilmiş simmetriyası pozulur. İlk baxışda əsərin məzmununda ziddiyyətin olmadığı hiss olunsa da, fasiləsiz şəkildə davam edən daxili gərginlik, həyəcan vardır. Konsert janrının spesifikasına xas olmayan xüsusiyyətlərdən biri hissələrarası ziddiyyətin gizli şəkildə davam etməsi və addım - addım dramatizasiyaya məruz qalmasıdır.

Hissələrin səslənmə müddətini – xronometrajı da tam orijinal səciyyə daşıyır. Təkcə onu deyək ki, finalın həcmi əvvəlki iki hissənin birlikdə həcmini və səslənmə müddətini aşır. Bu da bəstəkarın məhz finala necə bir önəm verdiyinə işarədir.

Konsertdə simfonizm prinsiplərinin "fəaliyyəti" də önəmlidir. Z.Dadaşzadənin təbirincə, əsərdə*"konsertin simfoniya ilə "ittifaqı" göz qabağındadır"*[1]. Çünki, bəstəkar sırf konsert estetikasının birmənalı ifadəsindən imtina edərək janrı mənaca yükləyir və konserti konsepsiyasına uyğun reallaşdırır.

İstənilən halda bəstəkar janrın tələbləri ilə "hesablaşmaq" məcburiyyətini hiss edir və janrın müəyyən amillərini saxlayır:

1. Solistin funksiyası qorunub saxlanılır. Solo fraqmentlərin çoxluğu və orkestrin dəqiq inkişaf xəttijanr əlamətlərini möhkəmləndirir.
2. Əsərin məzmununda emosional gərginliyi əks etdirmək üçün bəstəkar məhz solistin partiyasını - onun səslənmə gücünə, intensiv ifadəliliyinə heç bir məhdudiyyət qoymadan olduqca mürəkkəb texniki ifa imkanları ilə yükləyir. Nəticədə solist sırf konsert estetikasına xas ifrat virtuoz xüsusiyyətlərdən məhrum olunmur.

Təsadüfi deyil ki, əsər Patrisiya Kopaçinskaya kimi nadir virtuoz imkanlara malik bir ifaçı – parlaq fərdiyyətə malik violin çalan üçün yazılmışdır.

Maraqlıdır ki, konsertdə solist üçün nəzərdə tutulan mürəkkəb, qəliz virtuozluq amili nəticəsində bəstəkar kadensiyaya ehtiyac duymur. Kadensiya funksiyası ayrıca bir qurum kimi

deyil, silsilə daxilində pərakəndə şəkildə icra olunur. Bu isə F.Qarayevin ənənəyə yaradıcı münasibətindən irəli gəlir.

Konsert orkestrin məhz müasir musiqi sistemində təyin olunan funksiyalarının nəzərdən keçirilməsi, orkestr imkanlarının faktura və tembr aspektində öyrənilməsi baxımından xüsusi aktuallıq kəsb edir. Konsertdə bəstəkar virtuoz orkestrləşmə ilə polifonik yazının və bütün texniki metodların (müasir təmayüllər məcrasında formalaşan texnika metodları nəzərdə tutulur) birləşdiyi yeni instrumental yazının mükəmməl nümunəsini təqdim edir. Bu cür təqdimat müəllifin mövcud bəstəkarlıq yazısına yeni münasibətindən irəli gəlir.

Konsertin özəlliklərindən biri də budur ki, bəstəkar əsərə cəlb etdiyi "yad musiqi" fraqmentlərinin "üslub ziddiyyəti" həllini XX -XXI əsr musiqisi üçün səciyyəvi olan polistilistik texnikanın tətbiqi vasitəsilə reallaşdırır. Bəstəkar həm konsert janrının arxetip əlamətlərinə və ənənəvi təfsirinə ünvanlanır (Vivaldi, Mendelson, Brams), həm də bu janrın daha fərqli, orijinal yozumuna istinad edən müəlliflərə müraciət edir. (Berq, Q.Qarayev).

Konsertin bədii məziyyətləri müasir təmayüllər təməlində qurulur və orijinal bədii həlli onu musiqi tarixinin ən önəmli hadisələrindən biri kimi qiymətləndirmək imkanı verir. Eyni zamanda konsertin konsepsiyasına intertekstual sistemin daxil edilməsi, konsertin dramaturji ideyası, həlli məzmun-stuktur əlamətlərində köklü dəyişikliklər tələb edir. Bununla belə konsertdə janrın sabit faktorlarının tamamilə aradan qaldırılması və yeni janr əlamətlərinin təsdiqlənməsi fikrini əminliklə bəyan edə bilmərik.

## Ədəbiyyat:

1.Dadaşzadə Z.A. Azərbaycan simfoniyası.1960-1980-ci illər(janrın əsas inkişaf təmayüllərinə dair).Dərs vəsaiti. Bakı: "Ziya", 2012- s. 12,15
2.Dadaşzadə Z.A.Qara Qarayev adına IV Beynəlxalq müasir musiqi festivalı. Опубликовано: журнал «Гобустан» (Баку), 2011, №4, с.9-19
3. Высоцкая М. С. Между логикой и парадоксом:Композитор Фарадж Караев Автореферат диссертации на соискание учёной степени доктора искусствоведения. Москва:2012
4.Дождемся очереного витка спирали?" // Музыкальая академия,1993. №4.- с.14-19.
5.Ефименко С.В. Фарадж Караев: Жизнь. Творчество.Идеи: Дипломная работа/ научный руководитель В.Ценова.Москва. 2002, с.46

**Айсель Гаджиева**

**Жанровые особенности концерта Фараджа Караева для оркестра и соло скрипки**

**Резюме**

В данной статье анализируется творчество азербайджанского композитора Фараджа Караева. Исследование сфокусировано на его концерт с выступлением симфонического оркестра, а также и соло для скрипки в контексте концептуального обновления жанра. Здесь особо подчеркивается, что композитор по-новому трактовал традиционную модель жанра, что еще раз свидетельствует о функционировании в его творчестве принципа "in mixto genre".

**Ключевые слова:** Скрипичный концерт, Ф.Караев, жанр, концерт, композиция, виртуозность.

**Aysel Hajiyeva**

**Genre features of Faraj Karayev's concerto for the orchestra and solo violin**

**Summary**

This article analyzes the work of the Azerbaijani composer Faraj Karaev. The research is focused on his concert with the performance of a symphony orchestra, as well as solo for a violin in the context of a conceptual renewal of the genre. It emphasizes that the composer reinterprets the traditional model of the genre in a new way, which once again testifies to the functioning in his work of the principle"in mixto genre".

**Keywords**: violin concerto, F.Karaev, genre, concerto, composition, virtuosity.

**Məqalənin redaksiyaya daxil olma tarixi:**
**19.10.2017 Məqalənin təkrar işlənməyə göndərilmə**
**tarixi: 26.10.2017Məqalənin çapa qəbul olunma**
**tarixi: 14.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent ElladaHüseynova**
**ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**